AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ ƏMƏKDAŞLARININ MOTİVASİYASI PROSEDURU

I. Ümumi müddəalar

1.1. Azəbaycan Turizm və Menecment Universitetində Əməkdaşların Motivasiyası haqqında Prosedur (bundan sonra - ƏMP) işçilərin öz vəzifələrini vicdanla yerinə yetirməsi, əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində həyata keçirməsi, əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılması və əməkdaşların maddi və qeyri-maddi maraqlarının artırılması məqsədi ilə qəbul edilir.

1.2. Motivasiya-çalışqanlıq, təşəbbüs və işləmək arzusunu stimul edən daxili dəyərlərə və işçilərin ehtiyaclarına yönəlmiş bir sıra tədbirlər toplusudur. Motivasiyanın 2 növü var:

- Maddi.
- Qeyri-maddi.

1.3. Maddi motivasiyaya pul və xidmət şəklində ödənişlər aiddir. Bu metod bir işçi və ya kollektiv üçün tətbiq edilə bilər. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 157.2 maddəsinə görə əmək müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilməsində, istehsalın səmərəliliyinin və işin keyfiyyətinin artırılmasında işçilərin maddi marağını gücləndirmək məqsədi ilə mükafatlandırma, o cümlədən il ərzində işin yekunlarına görə mükafat və maddi həvəsləndirmənin digər formaları tətbiq edilə bilər. Bu halda, müəssisədə təyin edilən mükafatlandırma sistemi müəyyən edilmiş göstəricilər və şərtlər əsasında müəyyən şəxslərə mükafatların verilməsini nəzərdə tutmalıdır.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 157.6 maddəsinə əsasən mükafat əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsinə işçinin maddi marağının artırılması məqsədi ilə əmək haqqı sistemində nəzərdə tutulan qaydada və formada verilən həvəsləndirici pul vəsaitidir. Birdəfəlik mükafatlar işəgötürənin qərarı əsasında təyin edilir və verilir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 185-ci maddəsinə görə, əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində, müəssisədaxili intizam qaydalarına əməl edilməsində fərqlənmiş işçilərə işəgötürən tərəfindən pul və

ya qiymətli əşyalar hədiyyə edilə bilər. Bundan başqa, işəgötürən bayramlarda, işçilərin ad günlərində və s. hallarda işçilərə pul şəklində mükafatlar və ya qiymətli əşyalar hədiyyə edə bilər.

1.4. Qeyri-maddi motivasiya isə işçilərin özlərini dəyərli hiss etməsini təmin edən, ruhlandıran bir metoddur. Bu metod bir işçi və ya kollektiv üçün tətbiq edilə bilər. Qeyri-maddi motivasiyaya karyera yüksəlişi imkanının olması, kollektiv daxilində xoş atmosferin təmin edilməsi, mədəni-kütləvi tədbirlərin və korporativ gəzintilərin təşkil edilməsi, işçilərə əmək fəaliyyətindəki fəallığa görə təşəkkür elan olunması və fəxri fərmanların təqdim olunması, müəssisə hesabına təlimlərdə pulsuz iştirak etmək imkanları və s. daxildir.

II. Məqsəd.

2.1. İşçilərin öz funksiyasını yüksək peşəkarlıq səviyyəsində həyata keçirməsi və əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi üçün onların stimullaşdırılması;

2.2. Əməkdaşların fərdi və kollektiv töhfəsini nəzərə almaqla maddi və mənəvi həvəsləndirilməsi.

III. Öhdəliklər

ATMU-nun əməkdaşlarının mükafatlandırılması prosesi aşağıdakı qaydalar əsasında həyata keçirilir:

3.1. Univeristetin inzibati-idarə və ştatda çalışan akademik heyəti il ərzində 4 bayram münasibətilə pul mükafatı ilə mükafatlandırılırlar:

- Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü;
- Novruz bayramı;
- Qurban bayramı;
- 5 oktyabr Beynəlxalq Müəllimlər Günü.

3.2. Öz vəzifə funksiyalarını yüksək peşəkarlıqla yerinə yetirən və o cümlədən öz funksiyalarından əlavə tapşırılmış işləri həyata keçirən əməkdaşlar HİK-in razılığı ilə pul mükafatı ilə mükafatlandırıla bilər.

3.3. İldə 2 dəfə qış və yay imtahan sessiyalarının sonunda müvafiq fakültə dekanlarının təqdimatları əsasında imtahanların keçirilməsində fəallıq göstərən əməkdaşlar pul mükafatı ilə mükafatlandırıla bilər.

3.4. İntizam tənbehi (töhmət, şiddətli töhmət) verilmiş əməkdaşlara 1 (bir) ay müddətinə pul mükafatının verilməsi şamil edilmir.

3.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 may 1994-cü il tarixli, 175 saylı Qərarını və Kollektiv Müqaviləni əsas tutaraq, ATMU-da çalışan işçilərdən əlilliyi olan əməkdaşların aylıq əmək haqlarına aşağıdakı qaydada əlavələr tətbiq olunur:

- III qrup - 15%
- II qrup – 20 %
- I qrup - 25%

3.6. İşçilərin yubiley günlərində (50, 55, 60, 65, 70 yaş və s.) və birinci sinfə gedən uşaqları olduqda onlara bir gün haqqı ödənilən istirahət günü verilə bilər.

3.7. İşçinin toyu olduqda və ya yaxın qohumu vəfat etdikdə müraciəti əsasında işçinin 3 gün ödənişli məzuniyyət verilir.

3.8. Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə ildə bir və ya 2 dəfə əməkdaşlara bayram sovqatları, Yeni il və Novruz bayramı münasibəti ilə işçilərin övladları üçün şənlik biletləri təqdim olunur.

3.9. Azərbaycan Turizm və Menecment Universitetində işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq Differensial əmək haqqı sistemi mexanizminin hazırlanması nəzərdə tutulur.